# Bölgələrdə ədəbi həyat: Lənkəran



**Vaqif YUSİFLİ**

*(Əvvəli ötən sayımızda)*

Əlbəttə, biz Qafar müəllimin təqdim etdiyi rəsmi arayışın bütün maddələrini burada xatırlatmaq istəməzdik. Lənkəranda və filialın əhatə etdiyi digər rayonlarda keçirilən onlarla kitab təqdimatlarını, imza günlərini, oxucularla görüşləri bir-bir sadalasaq, statistikaya enmiş olarıq. Ona görə də, Qafar müəllim gərək bizi bağışlasın. Və deyirik: Yorrulmayasan, Qafar müəllim, sükanı belə möhkəm saxla!

ONLARI SİZ DƏ TANIYIRSINIZ... Əziz oxucular, Lənkəranda yaşayan yazarların əksəriyyətini siz də yaxşı tanıyırsınız. Vaxtilə «region ədəbiyyatı» deyilən bir ifadə vardı. Ayrı-ayrı əyalətlərdə (şəhər, rayon, qəsəbələrdə) az-çox respublika səviyyəsində tanınan bəzi yazarlar olsa da (Lənkəranda Məmmədhüseyn Əliyev, Şəkər Aslan, Vaqif Hüseynov, Qubada Mövlud Qonaq, Naxçıvanda Hüseyn Razi, Əlyar Yusifli, İsmayıllıda Musa Yaqub, Sumqayıtda Xasay Cahangirov, Əşrəf Veysəlli, Ofelya Babayeva), Masallıda Məmməd Kazım, Qəbələdə Tacəddin Şahdağlı, Cəlilabadda Abbasağa və s.) əksərimiz həmin ifadəni işlətməkdən çəkinmirdik. Lakin yetmiş-səksəninci illərdən başlayaraq regionlarda ədəbi inkişafın tempi - yeni istedlərın çoxaldığı ona gətirib çıxardı ki,daha bu ifadəni işlətməyə ehtiyac qalmadı. İndi regionlarda yaşayıb-yaradan yazarların əksəriyyəti təkcə o regionlarda deyil, müasir Azərbaycan ədəbiyyatında yaxşı tanınırlar. Lənkəran da bu mənada istisna təşkil etmir. Biz bir neçə yazıçı-şair haqqında qısaca söz açacayıq, təbii ki, Azəçrbaycan oxucuları da onları yaxşı tanıyırlar.

İlk növbədə, Yaşar Rzayev haqqında. Uzun müddət Lənkəranda -partiya-sovet orqanlarında məsul vəzifələrdə çalışan, iki dəfə rayonun icra başçısı təyin olunan Yaşar müəllim lap gəncliyindən, «Leninçi» qəzetində çalışarkən ədəbi yaradıcılığa başlayıb. Elə gənc yaşlarında «Gecə eşalonu» və «Əks-səda» hekayələr, povestlər kitabları nəşr olunub. Bu hekayələr içində «Vəlinin kupletləri» ona bir yazıçı kimi böyük etimad, inam yaratdı. Vəzifə pillələri onu bir müddət ədəbiyyatdan ayırdı. Amma Lənkəranda-vəzifədə olanda Yaşar müəllim rayonun təkcə iqtisadiyyatı, sənayesi barədə düşünmürdü, həm də buradakı ədəbi həyata-ayrı-ayrı yazarlara qayğısını da əsirgəmirdi. Son on ildə isə Yaşar Rzayev yeni povestləri, bir romanı və Azərbaycan romanının 30-cu illər mənzərəsini əks etdirən elmi monoqrafiyası ilə ədəbi-elmi fəaliyyətini davam etdirir.

Lənkəranda bir ŞAİR də yaşayır və onun şeirləri müasir poeziyamızın maraqlı bir səhifəsini təşkil edir, - desəm, kimsə məni qınamasın. Onun yaradıcılığına həsr etdiyimiz bir yazıda Tərlan Əbilovu tamam fərqli, heç kimə bənzəməyən fərqli bir şair kimi tanıtmışdıq. Xüsusilə, bədii təsvir vasitələnin rəngarəngliyi, hər hansı mövzuya tamam fərqli və sərbəst yanaşım tərzi, daxili azadlıqdan gələn bir təşnəlik, bir qiyam hissi təşnəlik onun şeirlərinin başlıca göstəricisidir.

Zaman not dəftəridir,
Ömrüm
küləklərin əlində çalınan fleyta.
Elə isə
bəs niyə ömrümün musiqisi,
ömrümün ritmi sığmır, sığışmır
zamanın içindəki bu yeddi nota?
Neçə illərdir
içimdəki alov qarsayır budaqlarımı
yarpaq-yarpaq tökülürəm,
yarpaq-yarpaq cücərirəm
kölgəm qənim kəsilib insanlara!
Neçə illərdir
yağış əvəzi, qar əvəzi
yağır bu torpaqlara külüm!
Amma hələ də sönməyib,
hələ də səngiməyib
içimdəki bu alov, bu od.

Lənkəran ədəbi mühitinin tanınmasında bir şairin -Ağamir Cavadın fəaliyyətini xüsusi olaraq nəzərə çarpdıraq. Ağamir altı şeirlər, poemalar kitabının müəllifidir və sonuncu kitabı - «Dəniz adam» keçən il çapdan çıxıb. Şeirləri öz dilinin sadəliyi, lakin ən ümdəsi obrazlılığı ilə seçilir. Hətta əbədi mövzularda yazanda da, çalışır ki, təzə söz deyə bilsin. Məsələn, «Bu dünya» şeirində olduğu kimi:

Hərdən saz üstündə köklənən şair,
Mizrabı qırılmış sazdı bu dünya.
Bir böyük ilahi eşqdən güc alıb,
Yoxdan var eyləyən sözdü bu dünya.

Köksündə əbədi bir ocaq çatmış,
Odunu göylərin oduna qatmış,
Tanrının eşqiylə günaha batmış,
Məryəmtək bakirə qızdı bu dünya.

Səbrinlə göylərin bağrın üzürsən,
Bir ömür əzaba, dərdə dözürsən,
Sanma ki, torpağın üstə gəzirsən,
Ayağın altında tozdu bu dünya.

Ağamir Cavad heca şeirinin bütün növlərində ilham atını səyirdə bilir. Müxtəlif mövzularda (ən çox vətənpərvərlik, müstəqilliyin tərənnümü) qələm çalır, poemaları var, sonetlər, sonetlər çələngi ilə Şəkər Aslan yolunu davam etdirir, hər yeni kitabında da qəzəllərsiz keçinmir. Bütün bunlardan əlavə Lənkəranda yaşayan şairlərin əksəriyyəti haqqında məqalələrin də müəllifidir.

Sizə daha bir şairi - Ziyafət Yəhyanı tanıtmaq istəyirəm. Amma bilmirəm, siz onu tanıyırsınızmı? Akademik Nizami Cəfərov isə Ziyafət Yəhyanı yaxı tanıyır. Əgər tanımasaydı, onun üç il əvvəl nəşr olunan «Tənhalığın nəfəsi» kitabına ön söz yazmazdı. Ona görə də sözü Nizami müəllimə verirəm: «Azərbaycan yazıçıları» ensiklopedik məlumat kitabında Azərbaycan Yazıçılar Birliyinin üzvü, Lənkəranda yaşayıb-yaradan şair Ziyafət haqqında deyilir ki, «Ana» adlı ilk şeiri hələ orta məktəbdə oxuyarkən «Lənkəran» qəzetində çap edilib. İlk şeirlər kitabı «İtkin düşən harayım» isə qırx yaşlarında -1997-ci ildə işıq üzü görüb. Və o da məlum olur ki, Ziyafət dünyaya gəldiyi şəhərin ədəbi-ictimai həyatında hələ çox gənc yaşlarından kifayət qədər iştirak edib.Onun şeirlərində demək olar ki, hər məqamda, hər obrazda, hər yaşantıda, hər bədii detal və təfərrüatda hissiyyatlı, ilhamlı, gözükönlü tox (və müdrik) bir şairlə qarşılaşırsan. Ziyafətin ideya-poetik dünyagörüşündə fərdi mənlik ümummilli mənlikdən ayrılmazdır:

İstəmirəm özgə ola
Mənə qardaş!
İstəmirəm özgə ola
Mənə sirdaş!
Tarixin daş yaddaşına
Toxunanda bir özgə daş...
İstəmirəm yaddaşıma
Özgə yaddaş!..
İstəmirəm bir özgədən
Qeyrəti mən!
İstəmirəm özgə verən
Cürəti mən!

Nizami müəllim bu konteksdən Ziyafətin şeirlərini təhlil edir, onun dünya, eşq-məhəbbət, vətənpərvərlik şeirlərini, həmçinin qəzəllərini təhlil edir.

Siz, əziz oxucular, sosial mediyada bir imza ilə tez-tez qarşılaşırsınız. Tofiq Həsənli. Onun keçən il «Polad qalxanlara qələm çırpıram» şeirlər kitabı çapdan çıxıb və o kitabda Tofiqin əruzda və hecada yazdığı dini şeirləri, vətənpərvərlik, sevgi və satirik yazıları toplanıb. Həmin kitaba Tofiqin dostu, şeir-sənət həvəskarı İdrak Dadaşov ön söz yazıb, bəlkə də bu ön sözə müraciət etməzdim, amma o ön sözdə Tofiqi yaxşı tanıdım və indiyə qədər yaxşı tanımadığıma heyfisləndim.

«AYB-nin sədri Anar başda olmaqla, respublikanın tanınmış şairləri Lənkərana gəlmişdilər. Şəhər İcra hakimiyyətinin akt zalında Lənkəran şairləri ilə görüş keçirildi. Görüşdə Tofiq Həsənliyə də söz verildi. Hamı onun bir neçə satirik şeir oxuyacağını gözləyirdi. Amma o, iki lirik şeir oxudu. Həmin şeirlərdən yadımda qalan misraları nəzərinizə çatdırmaq istəyirəm:

Çox bağlı qapılar sözlə döyülmüş,
Qiymətli hər sözə qızıl deyilmiş.
Demə, danışmamaq qızıl deyilmiş,
Demə, çox ürəyin qızılı qalıb.

O biri şeirdə isə:

Ayları, illəri saymaqdır peşəm,
Qoy elə sözümü deyə bilməyim.
Özümdən əlimi çəkib üzmüşəm,
Başıma bir daha döyə bilmirəm.

Tofiqin AYB-yə üzv olmaması Anar müəllimi çox təəccübləndirdi və soruşdu: «Necə olur, belə istedadlı şair indiyə qədər Birliyin üzvü deyil?» Sonra göstəriş verdi ki, təcili sənədlərini hazırlayıb AYB-yə təqdim edin. Amma üstündən 25 ildən artıq vaxt keçməsinə baxmayaraq, Tofiq Həsənli hələ də AYB-nin üzvü deyil». Kimdir müqəssir?

Tofiq Həsənlinin yeni kitabındakı şeirləri oxuduq və doğrudan da, onun adı qarşısında «istedadlı» sözünü yazmamaq günah olardı. Xüsusilə, satirik şeirlərində sabiranə tərzi, əruzun müxtəlif bəhrlərində qələmə aldığı qəzəllər vətənpərvərlik çağırışları «istedadlı» kəlməsini tam doğruldur.

Lənkəranda yaşayan digər şairlərin yaradıcılığı barədə söz aça bilmədik. Amma «görünən kəndə nə bələdlik» deyib Fəxrəddin Teyyubu,, Etibar Vəliyevi, Əhməd Haqsevəri, Qardaşxan Fərzini, Balayar Sadiqi, Samir Sədaqətoğlunu, Baloğlan Cəlili, Mirhafiz Bahadırı, Simuzər Nüsrətbəylini bir daha tanıtmağa ehtiyac duymadıq. Bu yazının müəllifi həmin yazarların hər biri haqqında məqalələr qələmə aldığından öz-özünü təkrar etmək istəmədi.Lənkəranda yaşayan nasirlər haqqında isə «Lənkəranın ədəbi həyatı» kitabında bəhs edəcəyik..

İNDİ İSƏ ƏDƏBİ GƏNCLİK HAQQINDA: Lənkəranda istedadlı bir ədəbi gənclik-yeni ədəbi nəsil də formalaşmaqdadır. Budur onlar: Cavidan, Müşfiq Cəbi, Ziya Dilsuz, Xaqani Muğamatoğlu, Xilqət Talıbov, Aysel Səfərli, Aysel Nazim, Əyyub Türkay, Ülkər Nicatlı, Anar Seyidağa, Fateh..

Axırıncıdan başlayaq-Fateh Səfərovdan. Keçən il onun «Azərbaycan» jurnalının may nömrəsində debüt şeirləri çap olunub.

Ürəyimin ağrısını bilsəydin,
Gözdən axan yaş olardı sel kimi.
Təsəvvür et, adicə bir küləkdim,
Əsib keçdim adicə bir yel kimi.

Bilmirəm ki, nəyə görə yaşadım,
Niyə ölmək ucuz gəlir bu qədər?
Yoldan ötən hər insana su verdim,
Eşitmədim: ömrün olsun su qədər!

Düşməmişdi bu səadət payıma,
Tanrı, məni unutmusan, deyəsən.
Unudulan ən sonuncu adam mən,
Məndən sonra kim olacaq, görəsən?

Elə bu şeirdən görünür ki, Fateh Səfərovun debütü uğurludur. Yaxın gələcəkdə onun gözəl bir şair olacağına inanırıq. Bir az qüssədən-qəmdən uzaq olsa..

Azərbaycanda - bir ailə daxilində dörd şairin olması tək-tük, nadir hadisələrdəndir. Fatehin babası Həbib Səfərov Şəkər Aslanla, Yaşar Rzayevlə bir dövrdə yaşamışdı, bir neçə şeir kitabı da çap olunmuşdu. Həbibin böyük oğlu Məmməd Həbib indi öz kəndlərində yaşayır, onun «Tənha işıq adası» şeirlər kitabı və «Şəfəq» jurnalında dərc edilən şeirləri ilə tanış olduq. Atasının onun kitabına yazdığı ön sözdə «Özünü tapmaq heç kəsə bənzəməməkdir, əsl şairlikdir» ədəbi xeyirduasına Məmməd Həbib layiqincə əməl etməyə çalışır. Həbib Səfərovun ikinci oğlu Anar Həbiboğlu isə cəmi qırx üç il yaşadı. Şeirlərində təzə nəfəs, təzə obrazlar, təzə deyim tərzi ilə seçilirdi. Böyük təəssüf hissilə qeyd edək ki, onun ölümü ədəbiyyatımız üçün bir itki idi. Xəstələnməsəydi, ölüm onu cənginə almasaydı, Anar poetik istedadı ilə daha nələr yaradardı. Cəmi bircə kitabı çap olundu: «Əlini qoy ürəyimin üstünə». Anarın oğludur Fateh. İnanırıq ki, o tezliklə öz şeirləri ilə də fatehə çevriləcək!

Aysel Nazim, Aysel Xanlarqızı Səfərli, Ülkər Nicatlı və Cavidan -bu dörd şairə haqqında «Ulduz» jurnalında vaxtilə söz açmışıq. Bəzən qadınxanım yazarların şeirlərində bir-birini təkrar edən motivlər, ifadə vasitələri ilə qarşılaşırıq. Amma adlarını çəkdiyimiz bu zəriflərin heç biri digərinə bənzəmir. Cavidanın şeirləri daha çox modern üslubu ilə səciyyələnir və daxili azadlığın, sərbəst düşüncə tərzinin ifadəsi olan şeirlərində Cavidan inqilabçılığı çox sevir, qadın poeziyasına xas olan umu-küsü, ah-nalə onun şeirlərinə xas deyil.

Mən
bayağı mahnılara
soyunmaq istəmirəm
mənimçin
bir
Füzuli kantatası səsləndirin.

*(Davamı 16-cı səhifədə)*

*(Əvvəli 6-cı səhiyədə)*

Xalq şairi Sabir Rüstəmxanlı Aysel Xanlarqızı Səfərlinin «Karantin boşluğu» şeirlər kitabına «Ayrılığın və təkliyin sözü» adlı təfərrüatlı bir ön söz yazıb. Biz də o fikirdəyik ki: «Ayselin şeirlərində məni ən çox təsirləndirən məhz gənc ömürlərin qanadını qıran bu amansız tale karantininin və ona müqavimət göstərən, öz dözümü, sevgisi, sözü ilə onu asanlaşdıran, uzaqlıqlar üstündən mənəvi körpülər salan qadın etibarının poetik ifadəsi oldu».

Aysel Nazim və Ülkər Nicatlının şeirlərində isə daha çox sevgi duyğuları əks olunur. Təkcə sevgi duyğularımı? Ülkər Nicatlının bir şeirindən misal gətirək:

Yaşıl çəmənlərin ilməsi qaçıb,
Mamırlı qayalar dişini qıcıb,
Həsrəti götürüb haraya qaçım
Vətənin ağrısı azalsın bir az.

Lənkəranda yaşayan iki gənc şairin Müşfiq Cəbinin və Ziya Dilsuzun şeirləri isə onların gələcəyinə böyük ümidlər doğurur. Burada «gələcək» sözünü bir qədər şərti mənada anlayın. Çünki həm Müşfiqin, həm də Ziyanın fərdi üslubu, deyim tərzi indi-indi formalaşır. Ziya Dilsuzun artıq üçüncü kitabı nəşr olunub - «Ayrılıq və nöqtə». Əsasən sevgi hissləri üstündə köklənən şeirlərində biz bir kənd müəlliminin təbii duyğularının şahidi oluruq. Bu təbii hisslər bizi inandırır ki, bu mürəkkəb zəmanədə əsl sevgi, həqiqi eşq-məhəbbət heç də bu dünyadan əksilməyib.

Müşfiq Cəbinin də şeirləri onun orijinallığa, sözü obrazlı ifadə üsuluna və hər şeydən əvvəl təbiiliyə meyl etdiyini sübut edir. Müasir şeirimizdə hər hansı ənənəvi mövzuda təzə söz demək yalnız istedadlı şairlərə nəsib olur. O şair cavandırsa, daha yaxşı. Müşfiq Cəbinin «Azərbaycan» jurnalının bu ilki 3-4 saylarında yeddi şeiri çap olunub və diqqətlə nəzər yetirdikdə bu şeirlərin hər birində orijinal deyim tərzinin şahidi olduq. Şerimizdə dərddən çox yazırlar, amma Müşfiqin «Dərdi» rədifli qoşmasında dərdi söyləməyin yeni bir çaları ilə üzləşirik:

Nə qədər kiçikmiş dünya, İlahi
Bir yer tapammadım sərəm, bu dərdi.
Ömrün divarında uçuq yer də yox,
İlahi bəs hara hörəm bu dərdi?

Üzürük boşqabda, bir qaşıq da yox,
Bu dəniz içində bir qayıq da yox,
İçimdə közərən bir işıq da yox,
Gedəm arxasınca görəm bu dərdi.

Nə sən izimdəsən, nə mən izində,
Çıxıb getdim, məni gəzmə özündə,
Bir adam tapmadım bu yer üzündə,
Götürüb apara, verəm bu dərdi.

Müşfiqə həmişə belə gözəl şeirlər yazmağı arzulayaq.

Bu yazını bənzərsiz şairimiz (mərhum demirik ona) Camal Yusifzadənin «Lənkəran» şeiri ilə bitirək: